**AMEA Riyaziyyat və Mexanika İnstitutunun**

**"Elastiklik və plastiklik nəzəriyyəsi" şöbəsinin 2013- cü ilin elmi və elmi - təşkilatı fəaliyyəti haqqında hesabatın qısa məzmunu**

Şöbədə 12 nəfər elmi işçi çalışır. Onlardan 2-si elmlər doktoru, 9-u fəlsəfə doktorudur.

Şöbədə "Özlü, elastik, plastik konstruksiya elementlərinin möhkəmliyi, dayanıqlığı və rəqsi hərəkətləri" mövzusu ətrafında 12 iş yerinə yetirilmişdir.

Şöbə müdiri Vaqif C. Hacıyevin "Qeyri bircins mühitin müqavimətini nəzərə alaraq, qeyri bircins tirlər, lövhələr, silindrik və konik qabıqların rəqsi məsələlərinin riyazi modelləşdirilməsi" mövzusunda işi mühüm nəticə kimi təqdim olunmuşdur.

Hesabat dövründə 13 məqalə çap olunmuş (1-i xaricdə), 5 məqalə çapdadır, 3 tezis verilib və 6 məqalə çapa hazırlanır. Xaricdə çap olunmuş məqalə Vaqif C. Hacıyevin məqaləsidir:

Effect of the two-parameter elastic foundation on the critical parameters of nonhomogeneous orthotropic shells. World scientific Publishing Compony, International Journal of Structural Stability and Dynamics, Vol. 12, №5, 2012, 120041-120065

Vaqif C. Hacıyev "Neftçıxarmada və daşınmada istifadə olunan konstruksiya elementlərinin möhkəmlik xarakteristikalarının optimal variantının seçilməsi" layihəsi üzrə Azərbaycan Dövlət Neft şirkətinin qrantını almışdır (burada Mahir Mehdiyev də icraçı kimi iştirak edir).

Hüsaməddin M. Qasımov "Riyazi statistika üsulları ilə quyuların optimal iş rejimlərinin operativ təyini üçün proqram təminatı" mövzusunda SOCAR-ın qrant müsabiqəsinin qalibi olmuşdur (icraçı kimi).

Elməddin H. Şahbəndiyev və Gülnar R. Mirzəyeva "Dağılmanın qarşısının alınmasının riyazi modelləşdirilməsi" mövzusunda Elm fondunun qrant müsabiqəsinin qalibi olmuşlar (icraçı kimi).

**Şöbə müdiri f.-r.e.d., prof. V.C. Hacıyev.**